*Həsənzadə Tahirə. Bir daha Seyid Cəmaləddin haqqında*
*// Elmi əsərlər,2020,2(11),iyul-dekabr,s.59-62.*

**TARİX**

UOT 94(55)"19"

**Həsənzadə Tahirə,**
*tarix üzrə elmlər doktoru*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*

# BİR DAHA SEYİD CƏMALƏDDİN HAQQINDA

**Açar sözlər:** *Seyid Cəmaləddin,dünya müsəlmanları, qacarlar, həmrəylik.*

2018-ci ildə anadan olmasının 180 illiyi tamam olan Seyid Cəmaləddin Əfqani-Əsədabadi 1837-ci ildə nüfuzlu din xadimi Seyid Səfdərin ailəsində təvəllüd tapmışdır.

İslami birlik hərəkatının bayraqları adlandırılan Seyid Cəmaləddinin həyat və fəaliyyəti haqqında çoxlu sayda əsərlər yazılmışdır və bu əsərlərdə onun haqqında fərqli, müxtəlif məlumatlar, fikirlər vardır. Onunla izah edilir ki, Seyid Cəmaləddin öz əs-nəsəbi, milliyyəti, doğulduğu məkan, ana dili və dini (məzhəbi) barədə həqiqəti bildirmək istəməmişdir. O, özünü gah Kabili, gah Əfqani, gah da İstanbuli, rumlu, turanlı kimi tanıtmışdı. Səbəb isə bir olmuşdur: İranın müxtəlif ölkələrdə fəaliyyət göstərən səfirlik və konsulluqlarının məmurları tərəfindən baş verə biləcək narahatlıqdan, təqibdən qorunmaq!

Bəzi müəlliflər Seyidin «Əfqani» kimi şöhrət tapmasını özünün şiə əsilli olduğu bilindikdə işlərinə mane olmaqdan qorunmaq məqsədilə əlaqələndirirlər. Özü dəfələrlə Kabilin ətraf bölgələrindən birinin seyid nəslindən olduğunu bildirsə də alimlər bunu araşdırmadan onun Kabilin Əsədabad qəsəbəsindən olduğunu düşünmüşlər.

Əslən azərbaycanlı olan İran alimi, Mehdi Bamdad özünün Azərbaycan türkləri haqqında məlumat verən «Tarixi-ricali-İran» əsərində Seyid Cəmaləddin Əfqanidən ətraflı bəhs etmişdir.

Qacarlar hakimiyyəti dövründə Əfqanıstanın ilk səfiri olmuş Sərdar Əbdüləziz xan, Əfqanıstan istiqlaliyyət qazandıqdan və İngiltərənin əsarətindən qurtulduqdan sonra, yəni 1919-cu ildə İrana gələrək, uzun müddət İranda olmuş əmisi, eyni zamanda qaynatası olan Sərdar İskəndər xandan eşitdiklərini Mehdi Bamdada söyləmişdir. Mehdi Bamdad yazır: «Bir dəfə Sərdar (İskəndər xan – T.H.) Tehranda olan Seyid Cəmaləddindən soruşur ki, siz nə üçün özünüzü Əfqani kimi tanıtmısınız? Mən Əfqanıstanda olan bütün məşhur ailələri çox yaxşı tanıyıram və siz Əfqanıstanda yaşayan ailələrin heç birindən deyilsiniz».

Seyid Cəmaləddin İskəndər xanın sualına cavab verərək demişdir: «İran dövlətinin xarici ölkələrdə nümayəndələri vardır, onlar mənim həyata keçirmək istədiyim işlərə mane ola bilərlər və məni həbs edə bilərlər. Bu səbəbdən Əfqani olmuşam. Əfqanıstanın isə heç bir yerdə siyasi nümayəndəsi yoxdur və mən öz işlərimi maneəsiz, arxayın həyata keçirə bilərəm, heç kəs də məni narahat etməz».

İngilis şərqşünası Eduard Braun da Seyid Cəmaləddinin Əfqanıstan əhalisindən olduğu fikrinə şübhə ilə yanaşmışdır.

O yazır: «Bu müddəa bütün iranlılar, eləcə də general Hautun Şindler kimi böyük tarixçi tərəfindən təsbit edilmişdir ki, o, Kabil yaxınlığında yerləşən Əsədabadda doğulmamışdır və sözsüz, İranın Həmədan şəhərinin Əsədabad kəndində təvəllüd tapmışdır.

Elə bu səbəbdən də, özünün dediyi kimi, Əfqanıstanda baş vermiş 1857-ci və 1868-ci illərin siyasi hadisələrində iştirak etməmişdir. Çox güman ki, o, əslən iranlı (azərbaycanlı – T.H.) olduğundan, sünni əhali yaşayan mühitdə asayiş və əmniyyətini bərqərar etmək istədiyi üçün Əfqani olmuşdur (1, C. 1, s. 258).

Seyid Cəmaləddinin ilk tədqiqatçılarından biri olan Seyid Həsən Tağızadə yazır: «Müəllifə məlum olur ki, o, İran əhlindən olmuşdur».

Seyid Həsən Tağızadədən əvvəl Seyid Cəmaləddini yaxından tanıyan Mirzə Əli xan Əminüddövlə[1] «Xatiratı – siyasiyi – Əminüddövlə» adlı xatirələrində yazmışdır: «h.q. 1304-cü (1886) ildə Tehrana gəldikdən sonra məlum olmuşdur ki, Seyid Cəmaləddin Əsədabad əfşarlarındandır. Uşaqlıq vaxtlarından Misirin Qəhirə şəhərində yaşamış, Şeyx Əfqani kimi məşhur olmasının səbəbi isə Misirin Qahirə şəhərində ona qəyyumluq etmiş şeyxlərlə bağlıdır». Hamiq İlqar da bu əqidədədir ki, son dövrdə nəşr edilmiş sənədlərdə Seyidin İran mənşəli olduğuna şübhə qalmır.

Həsən Tağızadə fikrini sübuta yetirmək üçün belə yazır: «Onun türkcə bilməsini, bu dildə danışığını eşidənlər, bu dildə danışdığının Osmanlılardan fərqləndiyini, Azərbaycan dilinə bənzədiyini deyirlər».

Məhəmmədağa Şahtaxtlı Tağızadəyə demişdir ki, Seyid onunla türkcə, Həmədan türkcəsi ilə danışırdı.

Əhməd Ağaoğlu da «Türk yurdu» qəzetində (1-ci il, 201-ci sayı) yazırdı ki, Seyid Cəmaləddinin özündən eşitmişdir ki, o, əslən Azərbaycan türküdür və marağalı soykökündən olub, Həmədan ətrafında dünyaya gəlmişdir. Mehdi Bamdad yazır ki, Seyid Cəmaləddin Qəzfin, İsfahan və Buxara şəhərlərində təhsil aldıqdan sonra Hindistana, Məkkəyə, oradan Kabilə getmiş, sarayda qulluq edərək, hakimiyyətdə olan Məhəmməd Əzəm xanın məşvərətçisi olmuşdur. Məhəmməd Əzəm xan vəzifəsindən kənarlaşdırıldıqdan sonra Seyid Misirə, sonra İstanbula getməyə məcbur olmuşdur. O, Türkiyədə bir sıra elmi müəssisələrə, cəmiyyətlərə üzv qəbul edilmişdir. Lakin burada Şeyxülislam və onun tərəfdarı olan bəzi köhnə fikirli ruhanilər onun şöhrətinə qibtə edərək, hörmətdən salmağa çalışmış, nəhayət, Seyid Cəmaləddin Türkiyədən sürgün olunmuşdur. Bundan sonra Misirə getmiş, Darülfünunda oxuduğu mühazirələr vasitəsilə ətrafına xeyli tələbə, gənc ziyalı toplamışdı. XIX əsrin 80-ci illərində İngiltərə Misiri işğal edərkən ayağa qaxmış mütərəqqi qüvvələrə Seyid Cəmaləddin başçılıq etmişdir. Onun Misirdə yaratdığı «Hizbul–vətən» əncüməninin proqramında Misirə siyasi, iqtisadi azadlıq, ölkədə xaricilərin mənafeyini məhdudlaşdırmaq tələbləri öz əksini tapmışdı. Ona görə də İngilislər Seyidin Misirdən sürgün olunmasını tələb və icra etdilər (3, 23).

O, bir müddət Hindistanda yaşamış, 1886 və 1889-cu illərdə onunla həmfikir və sıx əlaqədə olmuş (Şahin İbrahimov), Qacar dövlətinin ilk nəşriyyat naziri, görkəmli tarixçi-coğrafiyaşünas alim, maraqalı Məhəmmədhəsən xan Etimadüssəltənənin xahişi, Nəsrəddin şahın razılığı ilə Tehrana gəlmişdir. Tehranda olduğu zaman hər gün onun ətrafına minlərlə insan toplaşırdı. Yüksək natiqlik qabiliyyətinə malik olan Seyid Cəmaləddin çıxışları ilə insanları mübarizəyə ruhlandırır, mütləqiyyətə qarşı birləşdirirdi. Buradan İraqa sürgün olunan Seyid Cəmaləddin orada da mübarizəsini davam etdirmiş, bu zaman İranda baş vermiş «Tənbəki üsyanı»na rəhbərlik edərək, məktub vasitəsilə kütləni və ruhaniləri istiqamətləndirmişdir. Məlum olduğu kimi, antiimperialist xalq hərəkatı olan «Tənbəki

[1] Əminüddövlə Əli xan 1897-ci ildə Müzəffərəddin şah Qacarın Sədri-əzəmi təyin edilmiş mütərəqqi fikirli, maarifçi siyasi xadimdir. O, görkəmli Azərbaycan maarifçisi Mirzə Həsən Rusdiyyəni təqiblərdən qoruyaraq, Təbrizə gətirmiş, yeni üsulla məktəb açıb onu müdir təyin etmişdir.

üsyanı», Nəsrəddin şah Qacarın 9 mart 1891-ci il tarixdən tənbəkinin alınıb-satılması, emalı və ixracı üzərində inhisar yaratmaq imtiyazını ingilis kapitalisti Talbota verməsinə etiraz olaraq baş vermişdi. Şah xalq kütlələrinin təzyiqi altında Talbotla bağlanmış müqaviləni 1892-ci il yanvarın 5-də ləğv etməyə məcbur olmuşdu.

Seyid Cəmaləddinin məramı bütün dünya müsəlmanlarının birliyi idi. O, Türkiyə sultanı II Əbdülhəmidi Osmanlı – İran müqaviləsini, Əfqanıstanı isə Rusiya əleyhinə müqaviləni bağlamağa razı salmağa çalışırdı. Bu məqsədlə Londonda tanış olduğu Volfla İstanbula getmək istəyir, lakin onun bu məramı baş tutmur, Rusiyaya yola düşür, orada «Moskva» qəzetinin redaktoru Katkovla tanış olur.

Seyid Cəmaləddin dövrünün fazil və alim şəxsiyyəti, cəsur, şücaətli ictimai-siyasi xadimi idi. O, hansı ölkəyə ayaq basırdı, orada həyəcanlar yaradırdı. Onun proqramının bir hissəsini avropalıların Şərqə uzanmış əllərini kəsmək, onu zəbt eləmək cəhdlərinin qarşısını almaq təşkil edirdi. Bunun üçün Avropadan öyrənməyin zəruri olduğunu da göstərirdi (bu fikri ilk dəfə söyləyənlərdən biri Seyid Cəmaləddin olmuşdur). O, deyirdi ki, bu məqsədə çatmaq üçün gərək islamın güclü fərdi olsun. Hökumət və ya müstəqil dövlət bu hərəkatı öz məramı bilsin (1, C.1, s.266).

İngilis şərqşünası Eduard Braun son dəfə Londonda olarkən onunla görüşdüyü, bir neçə mitinq təşkil etdiyi və «İranda terrorun təntənəsi» adlı silsilə məqalələr yazdığı barədə məlumat vermişdir. O, Seyid Cəmaləddini «İttihadi-islam» təşkilatının qəhrəmanı kimi xatırldadırdı. O yazır: «Müsəlmanların azadlıq hərəkatında heç kəs Seyid Cəmaləddin qədər görkəmli, ləyaqətli rol Oynamamışdır» (1, C. 1, s. 279).

Seyid Cəmaləddin Əfqani öz böyük idealı olan millətlərin və dünya müsəlmanlarının vahid ittifaqını yaratmaq uğrunda mübarizə aparırdı, islamın əvvəlki qüdrətini, iftixarını bərpa etmək arzusunda idi.

Corci Zeydan «Məşahirüş-Şərq» əsərində Seyid Cəmaləddinin müsəlmanların vəhdətini Böyük imperatorluğunu və ya Ali Xilafətini yaratmaq arzularından bəhs etmiş, bu yolda onun böyük qüvvə sərf etdiyini, əziyyətlər çəkərək həyatı ailəsiz, nakam tərk etdiyini göstərmişdir (1, C. 1, s. 279).

Corci Zeydanın həmin kitabında bir məqam da diqqəti cəlb edir. O da Seyid Cəmaləddinin 1886-cı ildə Nəsrəddin şahın dəvəti ilə Tehrana gələrək, Hərbi Nazirliyə təyin edilməsi faktıdır. Bu fakt yalnız Məşahirüş-Şərq» kitabında öz əksini tapmışdır (1, C.1, s. 266-267).

Seyid Cəmaləddin Əsədabadi öz həyatının mənasını aşağıdakı sözləri ilə ifadə etmişdir: «Mən gecə-gündüz bu millətin uğurlarını necə təmin etmək barədə düşünmüşəm, onun vəziyyətini yaxşılaşdırmaq üçün islahatlar dilimin əzbəri olubdur. Əgər insanların xeyrinə çalışmasam, mənim gözüm kor olsun və əgər əllərim xalqın səadəti üçün çalışmasa, hərəkətdən qalsın. Əgər ayaqlarım Məhəmməd ümmətinin nicatı üçün addım atmasa, şikəst olsun! Budur mənim məsləkim, budur mənim məramım» (2, 3).

1892-ci ildə Osmanlı sultanı II Sultan Əbdülhəmid Londonda olan Seyidi İstanbula dəvət etmiş, ona öz iqamətgahına yaxın olan Nişantaşda mənzil vermişdir. Beləliklə o, özünü son illərini Türkiyədə yaşadı və orada müəmmalı şəkildə dünyasını dəyişdi (1, 280).

Seyid Cəmaləddin 1897-ci ilin mart ayında vəfat etmişdir. Onun bir fincan qəhvə içərək öz evində keçindiyini söyləyən iranlılar da olmuşdur. Lakin sonralar onları görən olmadı.

Seyid Cəmaləddin Əsədabadi Nisantaş yaxınlığında dəfn olunmuş, 1944-cü ildə sümükləri çıxarılıb Əfqanıstanın Kabil şəhərinə aparılmışdır (1, 280).

Məşhur alman alimi Henrix Heynenin bu sözlərini öz amalı yolunda məhv olmuş Seyid Cəmaləddin Əfqani-Həmədaniyə də aid etmək olar: «Doğrusu bilmirəm ki, mənim məzarım nə vaxt gül dəstələri ilə bəzənməyə layiqdir, ya yox. Lakin, siz, mənim məzarım üzərində qılınc qoymalısınız. Çünki mən, insanlığın azadlığı uğrunda gedən müharibədə qəhrəman bir əsgər olmuşam» (4).

**Ədəbiyyat:**

1. Mehdi Bamdad. Tarixi-ricali-İran. Cild 1, Tehran, 1966, 595 s. - Fars dilində.
2. Həsən Yusifi İşkəvəri. Dərayi-qafilə. Tehran, 1376/1999, 289 s. - Fars dilində.
3. Cəmaləddin Əfqani. 160 illiyi münasibətilə konfrans materialları. Bakı, 2000,132s.
4. Səməd Vurğun. Azərbaycanın Xarici Ölkələrlə Mədəni Rabitə Cəmiyyətinin iclasında nitqi. 20 dekabr, 1947-ci il. Əlyazmalar İnstitutu. Fr – 1624.

***Гасанзаде Тахира***

**ЕЩЁ РАЗ О СЕИДЕ ДЖАМАЛЕДДИНЕ АФГАНИ**

**Резюме**

Статья посвящена 180-летнему юбилею Сеида Джамаледдина Афгани-Хамадани (1838-1896), жизнь которого прошла в постоянной борьбе и основной целью его жизни являлся союз всех мусульман мира.

В статье также имеются сведения о новых фактах, которые были обнаружены в персоязычных источниках, повествующих о жизни и деятельности Сеида Джамаледдина Афгани.

**Ключевые слова:** *Сеид Джамаладдин, мусульмане мира, каджары, солидарность.*

***Qasanzadeh Takhira***

**ONE MORE TIME ABOUT SEYID JAMALADDIN AFGANI**

**Summary**

The article is dedicated to the 180th anniversary of Seyid Jamaladdin Afgani Hamadani (1838-1896), who struggled his lifelong for the unity of the Muslims all over the world.

The article also touches the new facts revealed in the Persian sources that deal with the life and activities of Seyid Jamaladdin Afgani.

**Key words:** *Sayid Jamaladdin, muslims of the world, qajars, solidarity.*

*Redaksiyaya daxil olma tarixi: 03.10.2020*
*Çapa qəbul olunma tarixi: 17.11.2020*

*Filologiya üzrə elmlər doktoru Paşa Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur.*